Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Vətəndaşların hüquqi, siyasi fəallığı Azərbaycanın demokratik nailiyyətlərinə böyük töhfələr verir

## İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

**Müasir Azərbaycanda ictimai həyatın bütün sahələrində baş verən əsaslı dəyişikliklər vətəndaşların sosial və hüquqi fəaliyyətinin dinamikliyinin yüksəlməsi ilə müşayiət olunur. Şəxsin hüquq və azadlıqlarının lazımi səviyyədə həyata keçirilməsi təkcə cəmiyyətdən və dövlətdən deyil, həm də böyük ölçüdə insanın özündən, onun hüquqi savadı və fəaliyyətindən asılıdır.**



### Davranış azadlığını təmin edən hüquqi mühit

Məlumdur ki, iqtisadi fəaliyyət azadlığının genişləndirilməsi, siyasi və ideoloji rəngarəngliyin inkişafı, vətəndaşların təşəbbüskarlığının və fəallığının artırılması ölkədə aparılan islahatlara hər kəsin şəxsən cəlb olunmasını tələb edir. Bu islahatların gedişi hər bir vətəndaşın hüquqi cəhətdən savadlı olması, aktivliyi ilə də şərtlənir. Onların siyasi hüquq və azadlıqları, seçki kampaniyaları və referendumlar zamanı şüurlu mövqe seçimi vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsindən bilavasitə asılıdır.

Müasir şəraitdə dövlətin əsas məqsədi cəmiyyət qarşısında məsuliyyəti ilə vəhdətdə insanın real davranış azadlığını təmin edə biləcək hüquqi mühit yaratmaqdır. Azərbaycan Konstitusiyası, digər qanunvericilik aktlarında insan, onun hüquq və azadlıqları ən yüksək dəyərdir. İnsan hüquq və azadlıqlarının tanınması, riayət edilməsi və qorunması dövlətin vəzifəsidir. Bu Konstitusiya tələbinin siyasi sahədə həyata keçirilməsi vətəndaşlar arasında hüquqi təminatın formalaşdırılması ilə həyata keçirilir. Konstitusiyanın siyasi hüquq və azadlıqlarla bağlı müddəalarını inkişaf etdirən, mövcud qanunların praktiki tətbiqini başa düşməyə kömək edən, siyasi hüquq və azadlıqların həyata keçirilməsində vətəndaşların hüquqi fəallığını artıran, subyektivizm təzahürünü məhdudlaşdıran tələblərin uğurla reallaşması məhz hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksək olmasından keçir. Siyasi hüquq və azadlıqların reallığı təkcə ali hakimiyyətin mövqeyindən deyil, həm də xalqın özündən, siyasi və hüquqi mədəniyyətindən asılıdır. İstənilən siyasət insanları idarə etmək və onlara təsir etmək üçün məqsədyönlü fəaliyyətdir. Bu təsir, əgər dövlət vasitəsilə həyata keçirilirsə, siyasi hakimiyyətdir, onun həyata keçirilməsi siyasətdir. Bu, bilavasitə vətəndaşların və dövlət xadimlərinin hüquqi, siyasi və mənəvi mədəniyyət səviyyəsindən asılıdır. Siyasi, hüquqi və əxlaqi mədəniyyət milli mədəniyyətin məzmunu ilə müəyyən edilir. Vətəndaşların siyasi hüquq və azadlıqlarının həyata keçirilməsi, siyasi sahədə qanunçuluğun və qayda-qanunun möhkəmləndirilməsi problemləri vətəndaşlarda qanuna hörmətə əsaslanan yüksək hüquq mədəniyyətinin formalaşdırılmasından ayrılmazdır. Siyasi hüquq və azadlıqların həyata keçirilməsi prosesində vətəndaşlar passiv fəaliyyət göstərmirlər. Onlardan hüquq və azadlıqların həyata keçirilməsinin bütün mərhələlərində lazımi səviyyədə fəallıq tələb olunur.

Hüquq mədəniyyətinin səviyyəsindən asılı olaraq vətəndaşların davranışı həm qanuni, yeni hüquq normalarının tələblərinə uyğun, həm də qeyri-qanuni, yeni hüquq normalarının tələblərindən yayınan ola bilər. Vətəndaşların siyasi sahədə davranışının xarakteri ilə onların hüquqi mədəniyyətinin səviyyəsini, siyasi hüquq və azadlıqların həyata keçirilməsinin effektivliyini qiymətləndirmək olar. Bunlar fonunda təqdirəlayiq haldır ki, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması yönündə ölkəmizdə bu gün də islahatlar həyata keçirilir. Burada onu da qeyd edək ki, Azərbaycan Konstitusiyasının 24-cü maddəsində (ümumilik, ayrılmazlıq, pozulmazlıq və toxunulmazlıq prinsipləri), 25-ci maddəsində (bərabərlik prinsipi), 71-ci maddəsinin 1-ci hissəsində (dövlət müdafiəsi prinsipi), 71-ci maddəsinin 6-cı hissəsində (birbaşa qüvvədə olma prinsipi) insan və vətəndaşın hüquqi statusunun əsas prinsipləri təsbit olunub. İnsan və vətəndaşın hüquqi statusunun bütün bu konstitusion prinsipləri Azərbaycan dövlətinin insan və vətəndaşın hüquq və azadlıqları sferasında siyasətinin əsas istiqamətlərini müəyyən edir və onların hüquqi statusunun əsasını təşkil edir.

### Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir

Dünya təcrübəsi göstərir ki, siyasi sferada ictimai aktiv qanuni davranış şəxsiyyətin yüksək hüquq mədəniyyətindən qaynaqlanır. Dövlət işlərinin idarə edilməsində iştiraka münasibətdə qanunda təsbit olunmuş demokratik ideya və prinsiplərin dərindən dərk edilməsinə, onların ardıcıl surətdə həyata keçirilməsinə əsaslanan ictimai-siyasi və yaradıcılıq fəaliyyəti vətəndaşların özünün taleyi baxımından da çox önəmlidir. Burada xüsusi vurğulamaq lazım gəlir ki, yüksək hüquq mədəniyyəti həm də qanuni davranışın yüksək forması - siyasi və hüquqi fəaliyyəti müəyyən edir.

Ümumiyyətlə, hüquqi fəaliyyət bu fenomen üçün xarakterik olan bütün xüsusiyyətlərə malik olan sosial fəaliyyət formasıdır. Bu, sosial-hüquqi hadisədir, öz məzmununda fərdi fəaliyyətin istənilən növünə xas olan həm sosial-hüquqi, həm də ümumi xüsusiyyətlərin məcmusunu əhatə edir. Məhz bu fonda ictimai fəal şəxsiyyət anlayışı fərdin yaradıcı, təşəbbüskar, aktiv münasibətini əhatə edir. Hüquqi fəaliyyət müxtəlif mənalarda nəzərdən keçirilə bilər: hüquqi davranışın uyğunluğunu təmin edən hüquqi şüurun tərkib hissəsi kimi; qanunçuluğun və qanunun aliliyinin möhkəmləndirilməsinə, dövlətçiliyin təkmilləşdirilməsinə yönəldilmiş hüquq sahəsində könüllü, ictimai əhəmiyyətli, şüurlu, yaradıcı fəaliyyət kimi; siyasi münasibətlərin hüquqi tənzimlənməsi sahəsində fəaliyyətə subyektiv münasibət və psixoloji hazırlıq kimi; fərdin həyata keçirmə qabiliyyəti və hüquq fəaliyyətinin intensivliyi dərəcəsi kimi; şəxsiyyətin hüquqi xüsusiyyətlərinin formalaşması və təzahürü kimi. Hüquqi fəaliyyətin mahiyyətini başa düşməkdə müəyyən fərqlərə baxmayaraq, onların ortaq cəhəti onun fərdin qanuni davranışının ali forması kimi başa düşülməsi və vətəndaşların onun daşıyıcısı kimi qəbul olunmasıdır. Yuxarıda qeyd olunduğu kimi Azərbaycan demokratik dəyərlərin mənimsənilməsi, Avroatlantik məkana inteqrasiya, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu istiqamətində mühüm uğurlara nail olub.

Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Hakimiyyətin bütün qollarına şamil edilən bu öhdəliklər insan hüquqlarına, azadlıqlarına hörmət etmək, onları müdafiə etmək və dəstəkləmək, eləcə də həyata keçirmək vəzifələrini ehtiva edir. Bu şəraitdə hüquqi, siyasi müstəidə vətəndaş fəallığı daha da artır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**